**“Polis haqqında” Azərbaycan Respublikasının Qanununda dəyişikliklər edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci bəndini rəhbər tutaraq, “Polis haqqında” Azərbaycan Respublikasının Qanununu “Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsində dəyişikliklər edilməsi haqqında” Azərbaycan Respublikasının 2015-ci il 20 oktyabr tarixli 1395-IVQD nömrəli Qanununa uyğunlaşdırmaq məqsədi ilə **qərara alır:**

“Polis haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1999, 11, maddə 611; 2001, 11, maddə 699, 12, maddə 731; 2002, 3, maddə 118, 6, maddə 328; 2003, 1, maddə 22, 8, maddə 424; 2004, 2, maddə 57, 3, maddə 133; 2006, 2, maddələr 74, 75, 11, maddə 927; 2007, 8, maddə 756; 2008, 4, maddə 251, 7, maddə 602, 8, maddə 696, 10, maddə 883; 2009, 6, maddələr 399, 401; 2010, 2, maddə 74, 3, maddə 171; 2014, 2, maddə 87, 11, maddə 1360; 2015, 5, maddə 486, 11, maddə 1277, 12, maddə 1444; Azərbaycan Respublikasının 2015-ci il 29 dekabr tarixli 85-VQD nömrəli, 2016-cı il 1 fevral tarixli 120-VQD nömrəli və 23 fevral tarixli 131-VQD nömrəli qanunları) 23-cü maddəsinin I hissəsinin 3-cü bəndində “əsaslarını” sözü “səbəbini, şübhənin mahiyyətini” sözləri ilə əvəz edilsin və həmin bəndə “hüquqlarını” sözündən sonra “ona aydın olan dildə” sözləri əlavə edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 aprel 2016-cı il
214-VQD